# YUMORİSTİK SƏHNƏLƏR

*(Əvvəli ötən saylarımızda)*

* * *

Rəisin kabinetinə vətəndaş daxil olur. Rəis onu görcək:

- Vətəndaş, bu gün qəbul günüm deyil. Gedin qəbul günümdə gəlin.

- Qapıda yazılıb ki, çərşənbə axşamı qəbul günüdür. Mən də gəlmişəm.

- Məgər bu gün çərşənbə axşamıdır? Mənin qəbulum gərək ki, bizim dildə dördüncü gündür?!

- Xeyir, "Çahar" dörd deməkdir. Məgər siz nərd oynamırsınız? Se - üç, dütdülü - iki, yek- bir, pənc-beş, şeş - altı. "Çahar" isə dörd deməkdir. Mən öz konstitusiya hüququmdan istifadə edib, tələb edirəm, mənim ərizəmə qolu bu gün çəkəsiniz.

- (əlacsız qalan rəis qol çəkir və vətəndaş çıxandan sonra telefonla kiməsə qışqırır) Əşi, bu həftənin günlərini dilimizdə yazın, biz də biləк də. Millətə sübut edə bilmirəm ki, bu gün dördüncü gün deyil. ... Dilçilərimiz günahkardır? Bu dilçi bilmir ki, millət günlərə nə deyir? Onun, bunun dilindən bir söz qoparıb həftənin günlərini quraşdırırlar. Əşi bir baxın bu millət nəyi necə deyir, lüğətə də onu yazın da! Heç kəs işləmək istəmir!

* * *

Birisi başqa birisinə ağzından çıxanı deyir. Kənarda dayanan başqa birisi isə təəccüblə onlara baxır:

- Sən əclafsan, alçaqsan, heyvansan, küçüksən. Bilirsən sən nəsən, inəksən eee.. inək, qoyunsan. Sənin anan fahişə, atan oğraş olub. Sən insan deyilsən, qoduqsan, eşşəksən, atsan, donuzsan. (cibindən çıxarıb pul verir və gedir).

Üçüncü ona yaxınlaşır:

- Xeyir, bura yeddinci blok, yed...

- Aydındır. (deyə müştüyü onun ağzına qoyur).

- Onda getdik! - (deyə, ikinci əli silahlı lifti basır və qapı açılanda hər ikisi liftə daxil olur və birinci silahlı deyir): - Bunların film çəkmələri nə çox çəkdi. Bu "nemes" paltarını gəzdirmək məni lap bezdirib.

- Daha demə, bu oyuncaq avtomatlar da məni bezdirib. - deyə, ikinci cavab verir.

Onların getdiyini görən müştük çəkən əllərini aşağı salıb müştüyünü ağzından çıxarır və rahat nəfəs alıb deyinir: - Bəxtim gətirdi, həqiqi faşist olmadılar....

* * *

İki nəfər: biri qeyri millət, o biri azərbaycanlı kənarda oxuyan birisinə baxırlar: - Ey yar, ey yar, ey yar, yar, yar, yar hey...

- O niyə ağlayır? - deyə qeyri millət soruşur.

- Ağlamır, oxuyur. - deyə azərbaycanlı cavab verir.

- Dədəm, dədəm, dədəm ay, dədəm ay. Anam ay, anam, anam, anam ay...

- O, hələ də oxuyur? - deyə qeyri millət soruşur.

- Yox, bu dəfə ağlayır.

- Qəribədir, bilinmir, nə vaxt ağlayırsınız. Nə vaxt oxuyursunuz!?

* * *

Ər arvaddan yeməyi gətirməyi tələb edir.

- Ay arvad, tez ol yeməyi gətir!

- A kişi, bir "inşallah", de, "Allah qoysa", de, "Allahın qisməti", de!

- Allah qoysa da, qoymasa da, qismət etsə də, etməsə də mən gərək o yeməyi indi yeyim. Lap acından ölürəm.

- Bu adam hər gün gəlib səni təhqir edir. Sən də onun cavabın vermirsən? Ona gücün çatar, niyə təhqir edilməyinə imkan verirsən?

- Mən narkomanam. Onlar acıqlarını mənə töküb sakitləşirlər. Mən də onlardan pul alıb iynələyib sakitləşirəm.

* * *

İkisi nərd oynayır: - Elə bilirsən buraya özüm gəlmişəm?

- Yox!

- Vur bura! (əlini onun əlinə vurur).

- Mən o saat bildim ki, səni bura gətiriblər. Sən özün gəlməmişsən.

- Düzdür. Vur bura. (əlini onun əlinə vurur).

- Mən gedim.

- Sağ ol, ya Allah, vur bura.

Zindanın qapısı açılır və nəzarətçi kameradan çıxıb qapını qıfıllayıb gedir.

* * *

Barda iki oğlan və iki qız arxaların bir-birinə söhbət edirlər. Oğlan öz dostuna araq süzüb, sonra da öz əli ilə ona içirib, yedirdir. Bunun müqabilində təşəkkür əvəzinə deyir: - Məni yuxu basır, bu araq lap başıma vurdu.

- Bir şey fikirləşərik.

- Fikirləş, yoxsa yatıb burada qalacağam.

Dostu iki əli ilə arxaları onlara olan iki qızın ayağından möhkəm çimdikləyib üzünü çevirir. Qızlar çevriləndə qarşılarında sərxoş oğlanı görürlər və hərəsi bir üzündən silla vurur. Bu vaxt oğlan tibbi sarğı ilə tamamilə hər iki əli sarınmış və heç bir barmağı belə bayırda qalmayan qollarını qaldırıb üzünü qızlara tutur, qızlar ona təəccüblə baxıb pərt olurlar.

* * *

Birisi müştüyü ilə liftin yanında siqaret çəkir. Bu vaxt lift dayanır və oradan alman hərbi geyimində, faşist paltarında iki nəfər əli silahlı çıxır. Vahimələnən adam onları görcək əllərini qaldırır və müştüyü ağzından götürməyə cəsarət etmir. Alman geyimlilərdən biri: - Beşinci blok yeddinci mərtəbə buradır? (deyib ağzından müştüyü çıxarıb cavab gözləyir)

Bu vaxt qapının zəngi çalınır. Kişi qapını açanda iki nəfər NKVD işçisi içəri girib onun qollarından yapışıb aparır.

Hadisədən on beş il keçir. Qapı döyülür. Arvad kimin qapını döydüyünü soruşur. Bayırdan bu sözlər eşidilir:

- İnşallah mənəm, Allah qoysa, mənəm, qismət olsa mənəm.

Arvad qapını açır, içəri saçları ağarmış, üzü qırışmış, qocalmış, xəstə əri daxil olur. Kişi dil-boğaza salmadan sözünə davam edir.

- İnşallah mənəm, Allah qismət eləsə içəri keçərəm. Allah qoysa, inşallah, Allaha qurban olum, Allahı tanımayana lənət!

* * *

Bərbərxanada şagirdlərdən biri ustasından soruşur.

- Ay usta, bu məhəllənin camaatı günah iş tutanın müəllimini niyə söyür?

- Bir müddət yaşayarsan, sonra sən də belə düşünərsən.

- Yaxşı, yeri gəlmişkən, sizdən bir şey soruşum. Bu ruslar birisi gələndə deyirlər: Ə s toboy zaymusğ - yəni, mən səninlə məşğul olaram . Bəs bu tərəflərdə bu fikri necə deyirlər?

- Bu yerlərdə deyirlər ki, "indi sənin işinə baxaram".

- Nə yaxşı sözdür, mən bundan sonra mən də müştərilərimə belə deyərəm.

Bu vaxt usta xidməti otağa gedir və içəri müştəri daxil olub başını qırxmağı təklif edir. Şagird ustasının sözü ilə deyir: - Əyləş, "indi sənin işinə baxaram"!

Bunu eşidən müştəri ayağa qalxıb şillə ilə onu vurub deyir: - Get yaxınlarının işinə bax, əclafın biri, əclaf! - deyib, bərbərxananı tərk edir.

Şagird əli ilə üzünü tutub deyir:

- Dilin qurusun, ay usta! Sənə bu sözü öyrədən müəllimə nə deyim...

*(Davamı var)*



***Sənan İBRAHİMOV***